İnqilab İsaq



# SÖZÜN ÖLÜMSÜZ SƏFƏRİ

## Görkəmli şair Rübail Nəcəf oğlu Allahverdiyevin unudulmaz xatirəsinə

**Gəlimli-gedimli dünyanın sirdolu nağılları içində ömür az gedir, üz gedir, dərə-təpə düz gedir və bu dünyanın nağıllarını yarada-yarada özü də əfsanələşir. Bir gün ömür bitir. Bitməyən zaman isə sözün, yaradıcı insanın ədəbi taleyidir. Bu taleyin ağrı-acıları kəlmə-kəlmə, söz-söz ürəkdə hörüldükcə bir könüldən min könülə səfər başlayır... Sözün, poeziyasının ölümsüz səfəri..**

Rübail Nəcəf oğlu Allahverdiyev qəlbinin atəşini, könlünün sevdalarını böyük coşğu ilə yaşadığı bir şəhərdə - Gəncədə doğulmuşdur. Bu şəhər onun ədəbi taleyinin sirli məkanı idi. O, bütün varlığı ilə bu şəhərin ruhunu, əxlaqını, ədəb-ərkanını varlığına çevirə bilmişdir. Azərbaycanda çox az sayda belə şairlər tapılar ki, onun ədəbi tərcümeyihalı doğulduğu yurda, ağaca, çinara, hətta məhəlləyə bağlı olsun.

Rübail həyatının yarım əsrdən çoxunu Gəncə Dövlət Aqrar Universitetinin mühazirə salonlarında keçirib. Tanınmış bir alim kimi öz sahəsinin bilicisi, fanatı idi. Yüzlərlə məqalə, elmi araşdırmalar, monoqrafik tədqiqatlar onun elmi potensialının göstəricisi idi. Rübail bir müəllim, pedaqoq kimi öyrənməkdən və öyrətməkdən yorulmurdu. Bu peşə sevgisi, alim ömrü, onun şair taleyinə də çox böyük əhəmiyyətli təsir göstərmişdi. O, bir ürəkdə iki sənət sevdasını qoşa yaşatmağı bacarırdı. Bu bacarıq, bu sevgi isə elmi idrakla bədii təfəkkürün həmrəyliyinə mane olmur, əksinə bir-birinə qolqanad verirdi. Onun yaradıcılığında elmi dəyərlərlə bədii dəyərlərin vəhdəti daim müşahidə olunur.

Rübail həm də tanınmış bir ziyalı kimi böyüyüb boya-başa çatdığı şəhərin ictimai, mədəni həyatında yaxından iştirak edən, yorulmaq bilməyən fədakar insan idi. Ulu öndər Heydər Əliyevlə tarixi görüşü, ona həsr etdiyi ilhamlı, dərin məzmunlu şeiri buna bariz nümunədir.

Şair Azərbaycanı, doğma vətənini ürəkdən sevir, onun ağrı-acısı ilə yaşayırdı. Azərbaycan həqiqətlərini sözün həqiqətinə çevirməkdən qürur duyurdu. O, doğma torpağını - Vətənini işıq bürcü kimi görürdü. Bu bürcün işıqları isə həm sözünə, həm də dünyaya düşürdü. Qaranlıqları yara-yara işığa doğru gedən bu işıq bürcü onun sevgi və Vətən bürcü idi.

**Azərbaycan yerin alov bayrağı,**
**Hər qəlpəsi od nəfəsli bir hünər.**
**Dünyamızın bu işıqlı torpağı,**
**Zülmət əksən işıq-işıq cücərdər.**

Rübail yazırdı... Öz taleyini, millətinin, vətəninin taleyini. Söz onun ədəbi taleyinin inanc yeri idi. Bu inanc, bu sevgi isə ona halal şöhrət gətirmişdi. Elmdə tanınmış alim, professor, Əməkdar müəllim, ədəbi aləmdə isə Azərbaycanın unikal şairlərindən biri, Prezident mukafatçısı, Beynəlxalq Rəsul Rza mukafatı laureatı...

Bu adlar, bu uğurlar isə onun yorulmaz sənətkar həyatına heç vaxt arxayınlıq gətirmirdi. Bir-birinin ardınca çap olunmuş ”Sübhə yaxın”, ”Gecələr yuxusu qaçar qızların”, ”Bir işıqlı yol üstəyəm”, ”İldırımötürən”, ”Zamanla əlbəyaxa”, ”Altı məzar, üstü bazar”, ”Sahilsiz çaya körpü”, ”Tələsdikcə gecikirəm” və başqa adlı kitabları tanınmış bir şairin söz abidələridir.

İndi onun kitablarını vərəqləyirik.... Hər poetik nümunədə dünyanın narahat şair haraylarını eşidirik. Bu ağrılar şair ürəyinin - Rübailin vətəndaş mövqeyinin ağrılarıdır. ”Mən qəmimlə, kədərimlə yaşadım”- deyən şairin şeirlərinə üz tuturuq. Zaman isə bu şeirlərin alt qatındadır.

**Küləklər dumanla əlbəyaxadı,**
**Adamlar zamanla əlbəyaxadı,**
**Yaxşılar yamanla əlbəyaxadı,**
**Yaxa kiminkidi, əl kiminkidi?**

Amma bu ağrılar cavabsız qalmır, dünyanın dərdi-səri şairi sualdolu acılarla üz-üzə qoyur. Zamanın tale imtahanları bağlı qapılardan keçməli olur. Özü də necə?

**Göz dikilib tale verən qapıya,**
**Bu qapını kim aça, kim qapıya,**
**Dəmir qapıların taxta qapıya,**
**Görən işi düşəcəkmi, yoxsa yox?...**

Dünyanın bütün dərdləri şair ürəyində gecələyir. Kiminsə ümid bilib gözünü dikdiyi qapı əslində həqiqətin üzünə bağlanmış qapıdır. Bu qapıların arxasında sınmış talelərin göz yaşları, naçar ümidlər əlacsız dərdlərə çarə axtarır. Odur ki, şair ”Bu qapını kim aça, kim qapıya” deyir. Qapı qapamaq, bağlamaq anlamını ifadə edir. Bu da ictimai dəyəri artırır, poetik ustalığı önə çəkir. Mətləbi poetikləşdirir, ona daxili ritmik məna verir.

Zamanın və dünyanın dərdləri Rübail şeirlərində deklarasiya yolu ilə deyil, bədii faktın, orijinal müşahidənin məntiqi ilə mənalandırılır. Onun əsərlərinin özünəməxsusluğundan danışanda məhz bu cəhətlərə xüsusilə diqqət yetirilməlidir. Hamının hər gün rastlaşdığı adi həyat faktına şair görün necə böyük ictimai məna verib.

Məlumdur ki, adi məişət detalını bədii-fəlsəfi mətləbə çevirmək qələm adamından poetik ustalıq, poetik yanaşma tələb edir. ”Sağlamlıq kağızı” adlanan şeirin bədii qayəsində olduğu kimi... Əvvəlcə adi görünən bu mövzu müəlifin poetik yanaşmasından sonra ictimai dəyərini artırıb. Bax belə:

**Sağlamlıq haqqında arayışım yox,**
**Torpağım yaralı sağlam daşım yox,**
**Bəladan açılmaz rahat başım yox,**
**Sağlamlıq kağızı istəmə məndən.**

Bu şeirdə sağlamlıq kağızı istəyən məmurun, dəftərxana işçisinin əhval-ruhiyyəsi deyil, başqa bir mətləb - ictimai mətləb önə keçib. Şair sağlamlıq kağızına başqa məna prizmasından yanaşıb. Bu da Rübail yaradıcılığında mövzuya müxtəlif baxışdan baxmaq məharətindən doğur. Vətən, millət dərdləri şeirin daxili intonasiyasından üst qata - məna qatına keçir.



**Millətin nə qədər əlili vardır,**
**Əli göydə qalan zəlili vardır,**
**Qarabağ möhürlü bəd ili vardır,**
**Sağlamlıq kağızı istəmə məndən.**

***

**İndi bu kağızı həkim verəmmir,**
**Başbilən verəmmir, hakim verəmmir,**
**Bu dərdi bəs necə çəkim, ver əmr,**
**Sağlamlıq kağızı istəmə məndən.**

Bu orijinal yanaşma, mətnin poetik məna yükü şairin vətəndaşlıq mövqeyini diqqətə çəkir. Zamanın dərdlərinə çarə tapılmadıqca sağlamlıq kağızı verən tapılmır. Sağlamlıq isə əslində şeirin başlıca motivi olan vətəndir, torpaqdır, ən başlıcası vətəndaş mövqeyi, vətəndaş yanğısıdır.

Şairin maraqlı, ictimai tutumlu şeirlərindən biri də ”Nobel mükafatı” adlanır. Bildiyimiz kimi Nobellərin Azərbaycana marağı 1873-cü ildən başlayıb. 1879-cu ildə Nobel qardaşlarının şərikli sərmayəsi əsasında Bakıda ”Nobel qardaşları” şirkəti yaradılmışdır.

Alfred Nobel bir dəfə də olsun Bakıda olmadığı halda Bakı neftindən böyük sərmayələr əldə etmişdir. Onun vəsiyyətinə görə Nobel mükafatı təsis edilmişdi. Bu mukafat isə ədəbiyyat üzrə ilk dəfə 1901-ci ildə verilmişdir. Bu tarixi gəzişmələrdə başqa bir ictimai məna ortaya çıxır. Bu isə şairin ”Nobel mükafatı” şeirində sualdolu məqamları cavablandırır.

**Nobel qardaşları Bakı neftini,**
**Aldılar, satdılar pul qazandılar**
**Biz vurduq bağlarda tənək neftini,**
**Yadlar şərab içib qul qazandılar.**

***

**Nobel mükafatı mayası bizdən,**
**Onunla fəxr edir insan həyatı.**
**Mənim nümayəndəm kənardı gözdən,**
**Hələ almamışıq bu mükafatı.**

Tarixi həqiqətə şair bədii məntiqlə yanaşır. Tarix, tarixi faktlar bədii süjetə, bədii detala çevrilir. Nobel mükafatının qayəsindəki uyğunsuzluqlar şair qınağına çevrilir.

**Dünyanı dağıtmaq istəyənlərə,**
**Nobel mükafatı verilir, Allah!**

Rübail şerinin bədii qayəsi, özünəməxsus mövzu axtarışları onun poetik yanaşmalarında sənətkarlıq sirlərini, sənət uğurlarını daim artırırdı. Çünki bu mövzuların mahiyyətində dünyanın qlobal dərdləri, millət, vətən ağrıları həmişə önə keçir. Həqiqət isə zaman qarşısında təslim olmaq istəmir. Şair zamanla əlbəyaxa savaşa qalxır, fikir və həqiqət savaşına...

Poeziya işıqdır, ümiddir, sənətkarın güvəndiyi, yaşadığı torpağın ən ülvi dəyəridir. Bu dəyərlər xalqımızın çoxəsrlik mədəniyyətindən, genetik yaddaşından güc tapa-tapa varlığını, sözünü, özünü qoruyur.

Rübail elə bir torpaqda doğulub ki, o torpağın daşında, kərpicində, tarixi məhəllələrində, ulu çinarların da yaddaş kodu var.

Bu sirr beşiyi dahi Nizami yurdu- Gəncədir. Gəncə Rübail şeirində aparıcı bir obraz kimi əsərlərinin poetik simasını və gücünü ifadə edir. Onun əsərlərində Gəncə coğrafi məkandan daha çox intibah mədəniyyətinin ocağı kimi təqdir olunur.

Bu da şeirlərinin ovqatında hərəkətverici ruhu daim təzələyir, ona novator forması gətirir. Gəncə ilə bağlı çoxsaylı şeirləri isə onun yurd sevgilərinin poetik çələngdir. Qəhrəmanlıq və hünər çələngi...

**İgidliyi bəxşiş edib yaradan,**
**Döyüşlərdə qayıtmayıb yarıdan.**
**Çinar kimi buludları qanadan,**
**Cavad Xanın cidası var Gəncədə.**

**Vətənidir səngər-səngər qazılan,**
**Tarixidir neçə səmtə yoxulan.**
**Hər bürcündə qəhrəmanlıq yaradan,**
**Cavad Xanın qalası var Gəncədə.**

Rubail poeziyasında diqqəti çəkən məqamlardan biri də milli dəyərlərimizə sənətkar həssaslığıdır. Hər daşın, hər kərpicin məna qatında yaşayan, unudulmayan tarixdir. Bu baxımdan onun xeyli sayda etnoqrafik detallarla dolu olan, mənəvi dəyərlərimizi ifadə edən şeirləri az deyil. ”Anamın ağ kəlağayı” şeiri bu qəbildəndir. Qədimdən kəlağay analarımızın yüz illər boyu baş örpəyi olub. Örpək isə millətin namus, qeyrət dəyəridir.

**Açılanda səhər idi,**
**Ömrümüzə nəmər idi,**
**Günəş içrə qəmər idi,**
**Anamın ağ kəlağayı.**

***

**Buludlara yaraşırdı,**
**Baxanda göz qamaşırdı,**
**Anama çox yaraşırdı,**
**Anamın ağ kəlağayı.**

***

**O atamın əl işidi,**
**Bəyazlığı gümüşüydü,**
**Bir səadət gəlişiydi,**
**Anamın ağ kəlağayı.**

Bu şeirdə övlad sevgisi bir ananın örpəyi timsalında sanki bəşəriləşir. Ağ kəlağayın rəngləri taleyin rəngləri ilə birgə yaşayır. Xoşbəxt günlərin rəngi ağ kəlağaydırsa, dərdin, hicranın rəngi isə qara kəlağayıdır. Şair bu rənglər içində öz sevgisini, anasına, doğmalarına olan istəklərini poetik formada ifadə edir. Analarımızın kəlağayı bir simvol kimi, obraz kimi canlı və ibrətamizdir.

”Qaranlığa qənim olan” abır-ismət örtüyü yad baxışa nifrət, işıqlı ürəklərə isə məhəbbət bəxş edir. Şeirin son bəndlərində ifadə olunan fikirlər necə də ibrətamiz və düşündürücü bədii detallarla zəngindir.

**Atam öldü - uçdu qaya,**
**Hamı gəldi bu haraya.**
**Döndü qara kəlağaya,**
**Anamın ağ kəlağayı.**

***

**Yetimliyim yaddaş olub,**
**İpəkliyə yad daş olub,**
**Məzar üstə ağ daş olub,**
**Anamın ağ kəlağayı.**

Qəlbinin odunu, sözə, şeirə, böyük sənətə bəxş edən sənətkarı ehtiramla yad etmək, xatirəsini uca tutmaq poeziyasevərlərin ümdə borcudur. O, indi əbədiyyət yuxusundadır. Amma bütün ruhu ilə canından çox sevdiyi vətən torpağı onun şeirlərində ölümsüz bir səfər üstədir.Vətənin bu günü, sabahı və gələcəyi ilə...

Yerin behişt, ruhun şad olsun, qələm dostum!